# Niyyət axşamında hər dua dəyərlidir...

*Yeganə BAYRAMOVA*



Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Qazılar Şurası Ramazan ayının başlaması münasibətilə fətva verib. Fətvada deyilir ki, bu il Ramazan ayının 1-i miladi təqvimlə fevral ayının 19-na təsadüf edəcək.

QMİ-nin verdiyi fətvada fitrə zəkatının miqdarının adambaşına 10-15 manat civarında müəyyən olunduğu qeyd olunub.

**Novruz süfrələrini iftar saatlarına uyğunlaşdırın...**

Fətvada, həmçinin bildirilib: "Bu il Rəbbimizin vacib ilahi əmri olan mübarək Ramazan təqvimi Azərbaycan xalqının çoxəsrlik tarixində özəl yeri və milli önəmi olan Novruz ilə üst-üstə düşür.

Min illər boyu qeyd edilən mübarək Novruz torpağın oyanışını, təbiətin yenilənməsini və bəşərin intibahını təcəssüm etdirir. Novruzda savaşlar dayanmış, küsülülər barışmış, insanlar sevinclərini və sabaha ümidlərini bir-biri ilə bölüşmüşlər. Biz Ramazanın ilahi önəmini nəzərə alaraq tövsiyə edirik ki, çərşənbə axşamlarında açılan Novruz süfrələri iftar saatlarına uyğunlaşdırılsın və bununla da xalqımız həm Ramazanın, həm də Novruzun sevinc və bərəkətlərinə qovuşsun. Zəfər dönəmini yaşayan Azərbaycanda müqəddəs Ramazan və mübarək Novruz bayramlarının üst-üstə düşməsi Uca Allahın Lütfü ilə xeyirlərə vəsilə olan böyük müjdədir".

Qeyd edilib ki, Ramazan bayramının tarixi Şəvval ayının hilalının görünməsindən asılı olaraq böyük ehtimalla 20 marta təsadüf edəcək.

**Ramazan ayının ilk gecəsi**

Məlumdur ki, Ramazan ayı İslam aləmində on bir ayın sultanı olaraq adlandırılır. Ramazan ayı, eyni zamanda, qəlblərin dirildiyi, könüllərin nurlandığı, insani keyfiyyətlərin yenidən xatırlandığı, mənəvi hisslərin ən üst mərtəbəyə qalxdığı bir aydır. Bu mənada Ramazan ayı Allahın möminlərə bəxş etdiyi böyük bir lütf və nemətdir.

Məlumdur ki, müqəddəs Ramazan ayının ilk gecəsi niyyət axşamıdır. Gecənin əvvəlindən sübh azanına qədər istənilən vaxt qəlbdə niyyət etməklə hər bir müsəlman bu müqəddəs aya başlamış olur.

**Niyyət necə edilməlidir?**

İlahiyyatçı Ağa Hacıbəyli "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, oruc tutan şəxsin edəcəyi əməli özü üçün müəyyənləşdirməsi niyyət sayılır. Bu şəxs orucun axırına kimi bu müəyyənliyində sabit qalmalıdır: "Niyyəti dilə gətirmək vacib deyil. Oruc tutanlar bütöv ay üçün, yaxud ayrıca günlər üçün niyyət edə bilərlər".

**Niyyət etmək oruc tutan şəxsin yadından çıxıbsa...**

İlahiyyatçı qeyd edib ki, niyyət gecənin əvvəlindən sübh azanına qədərki zaman periodunda, istənilən vaxt edilə bilər: "Əgər niyyət etmək oruc tutan şəxsin yadından çıxsa, yaxud bilməsə və günortadan əvvəl yadına düşsə, bu halda orucu batil edən işlərdən görməyibsə, niyyət etməlidir. Əgər orucu batil edən işlər görübsə, yaxud günortadan sonra yadına düşsə, orucu pozulmuş hesab edilir. Lakin şam azanına qədər orucu batil edən işlərdən - yeməkdən, içməkdən və s. çəkinməli, sonradan həmin günün qəzasını tutmalıdır".

Yeni Azərbaycan.- 2026.- 18 fevral, №31.- S.8.